*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 104-110* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.1.104*

**İZM**

# Ədəbiyyatda avanqardizm

**Səbirə Müzəffərli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail.sebirememmedova50@gmail.com

**Annotasiya.** XX əsr siyasi hərəkatı sənət dünyasında da dəyişmələrə, biri digərini əvəz edən modern-avanqard istiqamətlərin yaranmasına səbəb oldu. Dağıdılmış, xaotik dünya, milli-konservativ dəyərlərlə kosmopolit düşüncənin qarşı-qarşıya gəlməsi yeni yaradıcılıq cərəyanlarının və alternativ sənətin yaranmasını şərtləndirən amillər idi. Məqalədə avanqardizm cərəyanının yarandığı dövr, xarakterik xüsusiyyətləri, dünya ədəbiyyatında, eləcə də milli ədəbiyyatda təzahürləri tədqiq olunmuşdur.
**Açar sözlər:** avanqard, fərd, poeziya, obraz, zaman

**Məqalə tarixçəsi:** göndərilib – 12.01.2023; qəbul edilib – 19.01.2023

# Avant-gardeism in literature

**Sabira Muzaffarli**
Instititute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail.sebirememmedova50@gmail.com

**Abstract.** The political movement of the 20th century led to the emergence of modern-avant-garde trends that replaced one another in the art world. The confrontation between the destroyed, chaotic world, national-conservative values and cosmopolitan thinking were the factors that determined the emergence of new creative trends and alternative art. In the article, the period when the avant-garde trend was born, its characteristic features, and its manifestations in world literature as well as in national literature were studied.
**Keywords:** avant-garde, individual, poetry, image, time

**Article history:** received – 12.01.2023; accepted − 19.01.2023

## Giriş / *Introduction*

XX əsrin mürəkkəb ictimai-siyasi panoraması sənət və ədəbiyyat aləmindən də təsirsiz ötüşmədi. Bəşərin qarışıq mənzərələri yaradıcı insanları susdura bilməzdi. Zaman və məkan, insan fərdinin "yeni dünya"da məqamı və yeri, doğmalıq və özgəlik, bundan əlavə? total çevrilişlər, inqilablar kimi epoxanın doğurduğu ümumsəciyyəvi xüsusiyyətlər sənət nümayəndələrinin dünyaya baxış bucağını tamamən dəyişdirdi. Onlar köhnə düşüncədən arınmaq, yeni təfəkkür kultu ortaya qoymaq üçün modern-estetik konsepsiyalar irəli sürməyə başladılar. Əsas niyyətləri gerçək dünyanın mahiyyətini üzə çıxarmaqdan ibarət idi.

Dağıdılmış, xaotik dünya, milli-konservativ dəyərlərlə kosmopolit düşüncənin qarşı-qarşıya gəlməsi yeni yaradıcılıq cərəyanlarının və alternativ sənətin yaranmasını şərtləndirən amillər idi. *"Əgər mühitdə siyasi-ideoloji cəhətdən azadlıq və inqilabi əhval-ruhiyyə olmasaydı, bu təmayüllər öz varlığını elan edə bilməyəcəkdi" [2, s.33].* Bəllidir ki, *"hər bir ədəbi cərəyanın yaranması ictimai-siyasi və sosial proseslərin və ya dünyanın böyük hissəsini əhatə edən müharibələrin, hansısa bir yeni dəyişim hərəkatının nəticəsində baş verir"* [5].

## Əsas hissə / *Main Part*

Avanqard(izm) keçmişin mədəni irsini rədd edən, qəbul olunmuş bütün norma və idealları pozmağa çalışıb yerində yeni ictimai şüur formalaşdıran bədii-estetik hərəkatdır. Leksik anlamda "baş gözətçi", "öndə gedən qoşun" və "donanma" mənalarını ehtiva edən "avanqard" anlayışı *"XIX əsrin sonları – XX əsrin əvvəllərinə qədər siyasi hərəkatı, yəni həmin dövr üçün səciyyəvi olan inqilabi təbəddülatı və anarxist meyilləri ifadə edib"* [3, s.198].

Avanqard termini hər hansısa bir qrupa, cərəyana aid ifadə kimi işlənməyib. *"Avanqardın tarixi və poetik sınırları da tam aydınlaşmayıb, futurizm, dadaizm, konstruktivizm, kubizm, sürrealizm, ekspressionizm, imajizm, ekzistensializm və s. kimi modernist cərəyanlarla əlaqədar olan avanqard bəzən bu gün də ədəbi prosesdə mövcud olan meyillərə aid edilir"* [3, s.199].

Avanqardizm Qərbdə yaranmış cərəyanların ümumiləşdirilmiş adıdır. Daim yenilik axtarışında olan avanqard hərəkat *"cəmiyyətdəki ətalətə qarşı çıxan, daşlaşmış ənənədən uzaqlaşmağa can atan, buxova çevrilmiş varislikdən qurtarmağa çalışan" [6, s.198]* inqilabçı ruhlu sənətkarları və ədibləri birləşdirirdi. Təbii ki, avanqardçıların ənənəvi dəyərlərə ikrah hissi bəsləməsi irrasional deyildi. Əvvəlki dönəmlərdə yaranmış və inkişaf etmiş klassik irsin ölü kanonlarının bəşəriyyəti heç də xilas etmədiyini görən avanqardçılar tədricən həmin dəyərlərdən özlərini təcrid etməyə başladılar.

Avanqardçıların XX əsri bürümüş müharibələrə yanaşma tərzi də bir-birindən fərqlənirdi. Dadaistlər, ekzistensialistlər, ekspresionistlər kimi bir çox cərəyanlar müharibəyə neqativ münasibət bəsləsələr də, futuristlər müharibəni "dünyanın gigiyenası" hesab edirdilər. Onlar *"müharibənin dünyanı zir-zibildən təmizləyəcəyinə əmin idilər" [8, s.170].* Azərbaycan yazıçısı Rafiq Tağının fikrincə: *"Müharibələrin permanent mövcudluğu mədəniyyətləri lüzumsuz edir. Mədəniyyətlərin insanı yaxşılaşdıracağı gümanı özünü doğrultmadı. Məncə, bəşəriyyətin indiyəcənki tarixi buna bariz sübutdur. Əksinə, mədəniyyətlər milli təkəbbürü artırır, daha qəddar müharibələrə zəmin yaradır"* [10, s.249].

Avanqard dünyagörüş antimimetik səciyyə daşıyır. Onlar manifestlərində göstərirlər ki, sənət təbiəti təqlid və təsvir etməkdən çəkinməli, Aristotelin estetikasının özünü inkar etməlidir. *"H.Valden 1913-cü ildə yazırdı: "Bədii əsərlərə, yaxud təbiətə təqlid incəsənət ola bilməz..." [8, s.158].* Avanqard sənətkar zahiri təsvirçilikdən çox, özünün daxili aləminə enərək ən dərin hisslərinin düşüncələrinin ifadəsinə can atmalıdır. Bu baxımdan avanqardçılar ümumən mimesis konsepsiyasını və onun "təbiəti təsvir və təqlid" şüarını rədd edirdilər. Onların fikrinə görə,

sənətkarın təsvirçiliyə yaxınlaşması obyektin gerçək görüntüsündən uzaqlaşaraq onlar arasında məsafə yaradır, *"təsvir etdiyi hadisə və predmetdən təcrid edir və qarşılıqlı şəkildə onları bir-birindən özgələşdirir"* [8, s.160]. Halbuki həqiqətlərin "güzgü kimi" inikası ilə *"sənətkar maksimum ona yaxınlaşır, onu özününküləşdirir, ona qaynayıb qarışır" [8, s.160].* Alman ekspressionizm cərəyanının nümayəndələrindən biri, tənqidçi Kazimir Eşmid avanqardın antimimetikliyini aşağıdakı fikirlərlə ifadə etmişdir: *"Əsl reallıq xarici dünyada yox, sənətkarın daxili aləmindədir. Biz özümüz reallığı yaratmalıyıq. Predmetin mənasını ondan kənarda axtarmaq lazımdır. Biz faktlara inanmaqla, faktları təqdim etməklə, faktları təsbit etməklə kifayətlənməməliyik. Dünyanın təmiz, təhrif olunmamış əksini ortaya qoymaq lazımdır. Belə bir əks isə yalnız bizim içimizdədir"* [8, s.160].

Avanqard hərəkatın ilkin qaynaqlarına özünəməxsus emosionallığı ilə seçilən Katalon ədəbi mühitində rast gəlmək olar. *"Salvador Dali, Luis Montaya, Sebastyan Qaş kimi sənətkarların imzaladığı "Katalon ədəbi manifesti" avanqard konsepsiyanı dolğun ifadə edən qaynaq hesab olunur"* [6, s.200]. Manifestdə deyilir:

*Biz dəlil gətirmirik*
*biz lirika gəlişdirmirik.*
*biz söz hörmürük.*
*biz əllaməlik etmirik.*
*İdeyalarımızın nəfinə*
*faktları obyektiv*
*ifadə edirik.*
*və başqa heç nə*
*biz xilas edirik hələ yoluxmamışları.*
*biz bilirik ki, yeni heç nə deməyəcəyik.*
*Ancaq əminik ki, məhz bizim*
*baxışlar – artıq mövcud olan və*
*hələ doğulacaq yeniliyin əsasıdır.*
*biz yaşayırıq qəfil gözəlliklə dolu yeni həyatda.*
*Texnika dünyanı yenidən qiyama qaldırdı*
*Adsız kütlə incəsənətə qarşı duran və öz dövrü*
*ilə ahəngdə yaşadığından öz gündəlik*
*əməliylə bizimlə birgə*
*yeni dövrü təsdiqləyən.*
*Biz rədd edirik "Orfeo Katala"nın musiqiyə yad olanlar*
*üçün bayağılaşdırılmış xalq nəğmələri*
*və öz bəstələri şəklində təqdim etdiyi*
*cılız santimentləri ("Revellers"*
*amerikan xoru)*
*Biz rədd edirik cavanlarımızda cavanlığın*
*tam istisnasını*
*Biz rədd edirik cəsurluq və cəsarətin tam*
*istisnasını*
*Biz rədd edirik qeyri-adi davranış*
*və ya söz qorxusunu,*
*gülünc görünməkdən*
*ehtiyatlanmanı*
*Biz rədd edirik indiki və köhnə*

*sənət təfsirçilərinin*
*özbaşınalığını.*
*Biz rədd edirik köhnəsayaq yazan*
*gənc sənətkarları.*
*Biz rədd edirik köhnəsayaq yazan*
*gənc ədibləri*
*Biz rədd edirik nəfis memarlığı*
*Biz rədd edirik nəfis interyeri.*
*Biz rədd edirik cazibəli mənzərələri*
*rəsmə çəkənləri.*
*Biz rədd edirik Maraqalyo ruhunda*
*ən yayğın bayağılıqdan*
*yoğrulmuş müasir*
*Katalon poeziyasını.*
*Biz rədd edirik körpələr üçün nəzərdə tutulmuş*
*«Jordi» tipli bədii*
*zəhəri (uşaqlar Russo, Pikasso,*
*Şaqalı gözəl anlayıb sevərlər).*
*Biz rədd edirik şit mahnılar oxuyan*
*qızların psixologiyasını.*
*Biz rədd edirik şit mahnılar oxuyan*
*oğlanların psixologiyasını.* [6, s.201]

"Katalon antibədii manifesti" təkcə bir fərdin deyil, bir qrup, bir zümrənin cəmiyyətin açıq mənzərələrinə protestosu kimi səslənir. Bədii mətndə lirik qəhrəmanın monoloqu fonunda iki tendensiya qarşılaşdırılmışdır. Liro-subyekt "biz dəlil gətirmirik", "biz lirika gəlişdirmirik", "biz əllaməlik etmirik" və bu kimi nidalarla özünütəsdiq etməyə can atırsa, "biz rədd edirik" inkarı ilə "eranın o taylarında qalmış "əcdad"ların çiy instinktləri"nə açıq meydan oxuyur. Bütün bu aqressiv ritorikalar avanqard qəhrəmanın cəmiyyətə qarşı kəskin etiraz hissinin ifadəsi və qarşıdurması kimi inikas edilmişdir.

Avanqardizm də digər modern estetik cərəyanlar kimi, sovet estetikasına və ideologiyasına zidd mövqedə dururdu. Sosrealizm ideallarından fərqli olaraq, çağdaş dönəmdə *avanqard "önə insanı, fərdi, şəxsiyyəti çıxarır-büsbütün dünyəvi məzmunu ilə: arxada-sovet rejimi, xalq patriarxalllığı, cəmiyyəti (Rəsul Rza, İsa Hüseynov, Sabir Əhmədov, Anar, Əkrəm Əylisli, Əli Kərim) və habelə...* [4, s.57].

Avanqard konsepsiyanın orbiti XX əsr insanının fərdi duyğuları və psixologiyasıdır. Fəci sarsıntılardan təsirlənən insan "eqosentrik şəkildə" özünə qapanmış, tənhalığa məhkum olmuşdur. Onun içi bəşər naqisliklərindən bezmiş, usanmış ruhun yorğunluğundan qidalanırdı. Müsibətlər insanlararası toplumsal münasibətləri bərpa etmək əvəzinə, onları provakasiyaya sürükləyir və onları total məhvolma təhlükəsi ilə üz-üzə qoyurdu. Bütün bu proseslər *"XX əsr insanının dünya, təbiət və "mən" arasında başlanan daxili özgələşməsinə gətirib çıxartdı"*[1, s.158]. Lakin fərd bu vəziyyətdən çıxış yolu tapmalı idi. O ya gələcəkdə baş verəcək dəhşətli hadisələr qarşısında məğlub olaraq öz məhvini gözləməli, ya da fəlakətlərin qarşısını almağa cəhd göstərməliydi.

İnsanların özgələşməsi prosesinə birtərəfli yanaşmaq düzgün olmazdı. Özgələşməyə, bir tərəfdən, müharibə, digər tərəfdən isə urbanizasiya səbəb olmuşdur. *"...insan təbiətin bir parçasıdır, lakin XX əsr onu təbiətdən təcrid edib şəhərdə yaşamağa məhkum edir; insan irrasional varlıqdır, lakin müasir gerçəklik onu rasional tərzdə düşünməyə və hərəkət etməyə sürükləyir. Şəhər mühiti, urbanist şərait bir kəndin sakinlərini bir hündür mərtəbəli evin içində yerləşdirib onları cismən bir-*

*birini yaxınlaşdırsa da, mənən və ruhən bir- birindən uzaqlaşdırır, onların arasında uçurum yaradır"* [8, s.156].

Avanqard ideologiya incəsənətin bütün sahələrinə – memarlıq, teatr, dramaturgiya, rəssamlıq, musiqi, eləcə də poeziyaya təsirini göstərmişdir. Söz sənəti sahəsində avanqardçılar yeni formalar və kombinasiyalar axtarır, bədii nümunələrə yeni qaydalar tətbiq etməyə çalışırdılar. Ölçü, qəlib, qafiyə və klassik vəznlərə dağıdıcı mövqe ilə yanaşan avanqard sənətkarlar *"bədii nümunənin formasını və obrazını, həmçinin onun sintaksisini və hətta durğu işarələrindən istifadəni də özləri müəyyənləşdirməli idi"* [8, s.157].

*"Müasir dünyada mədəniyyətlərarası diffuziyanın, sənətlərarası dialoqun yayğınlaşması müəllifin mətnə (bütövlükdə sənətə) yanaşmasında da özünəməxsus iz qoymuşdur" [11, s.48].* Avanqardçılar çağdaş poetik diskursda novatorluq naminə fərqli istiqamətdə "simsiz təxəyyül", "montaj üsulu", "videopoeziya" kimi fenomenal eksperimentlər aparırdılar. "Simsiz təxəyyül" poetikasına görə, poeziya sözlərdən azad olunmalı, duyğuların ifadəsi üçün analogiyalardan, səs təqlidlərindən ("zaum dili") istifadə edilməlidir. Avanqardçıların düşüncəsinə görə *"sənətkar insanın əsl hiss və həyəcanlarını, düşüncələrini maskalayan rasional düşüncə tərzindən imtina etməli, sözlə ifadə olunan obrazlılığı dağıtmalıdır"* [8, s.168].

Kinematoqrafiyadan başlanan *"montaj üsulu"* sənətin bütün sahələrində uğurla tətbiq edilməyə başladı. Montaj üsulu *"poeziyada sözlər və cümlələr arasında irrasional şəkildə öz əksini tapmışdır"* [8, s.193]. Real zamanda bir-birilə yanaşı belə gəlməyən nəsnələrin, əşyaların yan-yana qoyulması avanqard poeziya üçün bir normadır. *"Bir araya gətirilən faktlar bu qonşuluqdan "təəccüblənərək" bir-birini ələ salır, inkar edir, ifşa obyektinə çevirir, bir-birinin bu vaxta qədər sezilməyən cəhətlərini işıqlandırırlar"* [8, s.193].

*"Qrafik şeir", "mediapoeziya", "fiqurlu şeir", "konkret şeir", "videopoeziya"* və buna bənzər adlarla ifadə olunan *"vizual poeziya"* çağdaş şeir üçün avanqard istiqamətdir. *"Vizual poeziya"* örnəklərində mətn elementləri eyni xətt üzrə düzülməyə bilər. Avanqard şair bədii mətndə xarici görünüşünü istənilən formada təşkil edə bilər. *"Vizual poeziya örnəkləri "qaydasız" şeirlərdir:konkret qəliblərə sığmayan, klassik qaydalara uymayan müəllif necə xəyal edirsə, necə görürsə, hansı üsulla çatdırmağa gərək duyursa, elə də yaradır*"[11, s.49].

Avanqardçılar ənənəvi mövzulara müraciət etsə də, onlara fərqli yanaşır, dövrün səciyyəvi xüsusiyyətlərinin daşıyan yeni obrazlar formalaşdırmaq istəyirdilər. Onlar *"insan hisslərini, məhəbbətin, xoşbəxtliyin, xeyirxahlığın ideallarını zəiflik kimi dəyərləndirir" [8, s.168]* və gözəlliyin tərənnümü üçün *"lokomotiv, avtomobil"* estetikasına xas *"enerji, sürət, güc"* ifadələrindən istifadə edərək, *"mühərriki ən kamil sənətkar, sürətlə şütüyən avtomobili isə antik Samofrakiyalı Nikadan da daha gözəl elan etdilər" [8, s.168].* Bundan əlavə, klassik poeziyada Allahla danışan, ona dualar ünvanlayan, çətin zamanlarda ondan kömək istəyən *"şair avanqard şeirdə onu öldürür. İnkarçılığını ona belə tətbiq etməyə başlayır. Və bu xaotik cəmiyyətdə inancın ölümü dəyərlərə yanaşmanın tənəzzülə uğraması demək idi"* [2, s.46].

Post-sovet dönəmində ictimai-siyasi formasiyanın dəyişməsi milli ədəbiyyatdan da təsirsiz ötüşmədi. *"Zamanın bilavasitə nəfəsi poeziyada daha yaxından duyulurdu" [3, s.172].* Ənənəvi dəyərlərə və klassik şeir təcrübəsinə əks istiqamətdə dayanmaq, "birbaşa günün nəfəsindən", modern-estetik təcrübələrdən çıxış etmək kimi düşüncə tərzi gənc və yeni ədəbi nəslin poetik nümunələrində, çağırışlarında, ideallarında özünü *"qeyri-ixtiyari, stixik şəkildə"* göstərirdi. *"1990-cılardan başlayaraq gələn nəsil artıq zamanın əlamətlərini daşıyırdı"* [3, s.172].

XIX əsrin sonu, XX əsrin əvvəllərində Qərb ədəbiyyatında meydana gələn avanqard təmayüllər Azərbaycan ədəbi mühitində yalnız XX əsrin sonlarında-müstəqillik havasının təsirilə təzahür edə bildi. *"Başlanğıc mərhələdə əvvəlcə ədəbi qruplar və yaradıcılıq birlikləri meydana gəlmiş və ədəbiyyatın hər hansı bir yeni istiqamətdə inkişafında maraqlı olduqlarını bəyan etmişdilər"* [7].

İlk ədəbi qrupların yaradıcılıq bəyanatlarının işıqlandırılmasında *"Xəzər" (1990) və "Yol" (1991-1994)* ədəbi dərgilərinin əvəzsiz payı olmuşdur.

Azərbaycan ədəbiyyatında yaranmış ilk ədəbi qrup *"Baca" (Rasim Qaraca, Azad Yaşar, İsmayıl Bayramoğlu*) idi. *"...poeziyada böhran havasını manifestasiya edən"* [9, s.500] "Baca" qrupunun ilk bəyanatları "Xəzər" jurnalının 1 və 2-ci saylarında dərc olunmuş Rasim Qaracanın və Azad Yaşarın yaradıcılıqlarından verilmiş poetik örnəklərdə əksini tapmışdır.

*"Baca"* qrupundan sonra yaranmış *Xanəmir, Mirşahin, Dəyanət Osmanlı, Qurban, Fəxri Uğurlu, Orxan Fikrətoğlu, Qulu Ağsəs, Məhəmməd Astanbəyli, Salam, Rüstəm Kamal, Zamin Hacı, Hafiz Nəzərli, İbrahim İbrahimli, Alqış Həsənoğlu, İlqar İlkin, Mənzər Güntəkin, Babək Göyüş, Balaxan Qərib, Usuboğlu, Səyyab Məmmədov, Sakit Sabiroğlu, Namaz Məmmədoğlu* və s. kimi qələmləri tanıdan *"Ağ yol"* ədəbi birliyində *"avanqard nəfəsi daha güclü hiss olunurdu; bütün allahların, bütün peyğəmbərlərin qurtardığı yer" də gülünckən güclü, fağırkən qəddar, sadəlikdən açıq olub, "Bütün ölkələrə, bütün xalqlara, bütün zamanlara qanun yazmaq"* [9, 50]). Lakin Tehran Əlişanoğlunun söylədiyi kimi, *"bu şairlərin yaradıcılığında avanqard nəfəsdən çox modernizm havası duyulurdu"* [2, s.37].

*"Fəlsəfi qayəsi simvolizm cərəyanı ilə bənzər olan"* [9, s.503] özünü ədəbi cameəyə *"mistik cərəyan"* kimi tanıdan və Dəyanət Osmanlı, Xanəmir, İbrahim İbrahimlinin estetik fikirlərini bəyan edən *"2+"* ədəbi cərəyanı "Yol" qəzetində çap olunmuş ilk manifestində *"varlığın xilasında poetik katarsisə önəm verdiyini" vurğulamışdır. "Yazmağın, deyəsən, üç şərti var: Görüm, Duyum, Yazım. Və həqiqi böyük sənət bu dünyanın- Gerçəkliyin, Ruhi mövcudluğun və görünən, görünməyən Şəkillərin Dərgaha apardığı yoldur...Vaxt, Zaman, Hərəkət gerçəkliyin içində duyğuların, hisslərin mayası ilə böyük sözün şəklini çəkir... "2+" ədəbi cərəyanı bu görünməyən gələcəyin, yalnız hiss oluna bilən gerçəkliklərin qabığını soymaq mənasını ifadə edir. "2+" İnsanlığın, mövcud və ruhi dünyanın zülmət ənginliyindəki ilahiliyi, tamlığı məlum olmayan həqiqətləri aşkarlamağa xidmət edir"* [9, s.502].

Daha sonra ard-arda yaradılmış *"ədəbi mühiti canlandırmaq, biganəliklər məngənəsində sıxılan cavan yazarları bu bəladan qurtarmaq"* [9, s.504] *iddiası ilə çıxış edən "Avanqard", "hər şeyin bozluğa büründüyü, sosial-iqtisadi, ictimai-siyasi, mədəni həyatımızda təbəddülatların hökm sürdüyü bir vaxtda ədəbiyyata, sözə xidmət"* [9, s.505] edən *"Qarçıçəyi" (Qulu Ağsəs, Salam, Zamin Hacı, Qurban, Mətləbağa, İlqar İlkin və başqaları), "ayrıcalığını saxlamaqla günün poetik tendensiyalarını təqdim etməyə çalışan" "Dəniz"* [9, s.504] *(İbrahim İlyaslı, Rauf Qaraişıq, Sabir Yusifoğlu, Xaqani Abuşov, Xanoğlan, Müşfiq Şükürov və b.)* ədəbi birliyi, o cümlədən 1990-cı illərin ikinci yarısında intensiv ortalığa çıxan Qəşəm Nəcəfzadənin *"Pərvanə" (Məlahət Yusifqızı, Ədalət Əsgəroğlu, Həyat Şəmi, Böyükxan Pərviz, İlqar Fəhmi, Sevinc Pərvanə və b.),* Bilal Alarlının *"Nöqtələr" (Hacıbala Əmirə, Ədalət Salman, Böyükxan Bağırlı, Əlizadə Nuri və b.),* Əkbər Qoşalının *"Dünya Gənc Türk Yazarlar Birliyi", Əjdər Olun "Ədəbi Klub", "yeni əsrin səsini, nəfəsini təmsil edən - Nəfəs" (Aqşin, Zahir Əzəmət, Xalid Şürük, Fehruz, Sadiq Elyer, Elsever),* Elçin Hüseynbəyli *"EQO Ordeni" (Orxan Fikrətoğlu, Fəxri Uğurlu, Salam, Murad Köhnəqala, Qulu Ağsəs, Qurban, Pərviz, Rafiq Tağı, Həmid Herisçi, Böyükkişi Heydərli)* kimi ədəbi birliklərin əsas məqsədləri ədəbiyyatı cavanlaşdırmaq, gənc yazarları cəmiyyətə tanıtmaq və *"gənclərə ədəbi müstəvi açmaqda görürdülər"* [ 3, s.190].

Yuxarıda sadaladığımız müxtəlif tendensiyaları və istiqamətləri inikas etdirən bu ədəbi birliklər, qruplar və məclislər ölkədə yeni, demokratik fikirlərin və ədəbi gedişatın formalaşmasında mühüm rol oynamışdırlar. Tehran Əlişanoğlunun qeyd etdiyi kimi, *"ötən əsrin təcrübəsi bir məqamı təsdiqləyir: qruplar, dərnəklər, manifestlər gərəkli hava, mühit zəmin yaradır, istedadlara ədəbiyyata gəlmək, özünü ədəbiyyatda tapmaq üçün yalnız vəsilə olur. Bugünün ədəbiyyatını yaradanların sırasında 1990-cı illərin mürəkkəb ictimai-tarixi və ədəbi-mədəni mühitini dəf edib, imza qazananlar, imzasını təsdiqləyənlər çoxdur"* [9, s.512].

**Nəticə / *Conclusion***

Avanqard sənətkarlar ədəbiyyatda ənənəvilikdən və klassik modellərdən uzaq, günün tempi ilə uzlaşan, oxucunu silkəyən, çaşdıran, təəcübləndirən liro-qəhrəmanlar yaratmaqla, söz sənətinin fərqli ifadə texnikalarından istifadə etməklə poeziyada yeni şeir imajı sərgiləməyə nail oldular. Avanqard sənət XX əsr ədəbiyyatının xarakterik göstərilərindən biridir.

**Ədəbiyyat / *References***

1. Akimova, E. Çağdaş poeziya və ədəbi təmayüllər. – Bakı, 2018.
2. Cabbarlı, N. Qurtuluşdan sonra (yeni nəsil ədəbiyyatı). – Bakı: Xan, 2017.
3. Əlişanoğlu, T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı (I hissə: 1990-cı illər). – Bakı: Qanun, 2013.
4. Əlişanoğlu, T. T.Mustafayinin Ədəbiyyat söhbəti (ədəbi-tarixi esse). – Bakı: Alatoran, 2020.
5. Gözlənilən ədəbi cərəyan - ədiblərin təxmini // https://oxu.az/culture/554698
6. Hacılı, A. XX əsr ədəbi düşüncələr tarixi (xatirələr, manifestlər, konsepsiyalar). – Bakı: Azərbaycan Universiteti, 2018.
7. Həbibbəyli, İ. Çoxmetodlu Azərbaycan ədəbiyyatı. Müstəqillik dövrü // http://heb.science.gov.az/az/news/1726/
8. Quliyev, Q. Ədəbi cərəyanlar və istiqamətlər. – Bakı: “OL” NPKT, 2019.
9. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. [2 cilddə], I cild. – Bakı: Elm və təhsil, 2016.
10. Tağı, R. Mədəniyyət və müharibə // Rafiq Tağı. Seçilmiş esseler, IV cild. – Bakı: Qanun, 2021.
11. Vahid, M. Ədəbi “Kəpənək effekti” (ədəbi-tənqidi esselər). – Bakı: Elm və təhsil, 2020.

## Авангардизм в литературе

**Сабира Музаффарли**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail.sebirememmedova50@gmail.com

**Резюме.** Политическое движение 20 века привело к появлению модерн-авангардных течений, которые сменяли друг друга в мире искусства. Противостояние разрушенного, хаотичного мира, национально-консервативных ценностей и космополитического мышления стали теми факторами, которые обусловили появление новых творческих течений и альтернативного искусства. В статье изучен период зарождения авангардного течения, его характерные черты, проявления в мировой литературе, а также в отечественной литературе.
**Ключевые слова:** авангард, личность, поэзия, образ, время